AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazma hüququnda*

**Samir Qismət oğlu Sadıqov**

# TOKAY MƏMMƏDOVUN YARADICILIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİNİN AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA ƏHƏMİYYƏTİ

İxtisas: 6215.01 – Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim edilmiş

## DİSSERTASİYA

**Elmi rəhbər:**
**Cəmilə Həsən qızı Novruzova**
**Sənətşünaslıq üzrə elmilər doktoru, professor.**

Samir

**Bakı – 2013**

Azərbaycan Milli Kitabxanası

Ali Attestasiya Komissiyası
Daxil olma № 540.02/10
"12" 12 2013 il

Tokay Məmmədov 2003-cü ildə həkim Əbülfəz Qarayevin Uşaq xəstəxanasının qarşısında büstünü ucaltmışdır. Qarayev Əbülfəz Fərəc oğlu (1885-1952) – Odessa şəhərindəki Novorossiya Universitetini bitirmiş və (1916) görkəmli həkim-pediatr, tibb elmləri doktoru, professor (1939), əməkdar elm xadimi (1940). O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı şəhər həkimlər cəmiyyəti idarə heyətinin üzvü olmuş, yatalaq xəstəliyi epidemiyasına qarşı mübarizədə yaxından iştirak etmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra respublikada qadın və uşaq müalicə müəssisələrinin yaradıcılarından biri olan Əbülfəz Qarayev bağırsaq infeksiyasına qarşı mübarizə problemi üzərində çalışmış, qan xəstəliklərinin etimologiyası, patogenezi və müalicə yollarını araşdırmışdır. 1930-cu ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Tibb Universitetində dərs demişdir.

Tokay Məmmədov monumental portret üçün bir-birinin ardınca portretlər silsiləsi yaradır. Onlarda kompozisiya incəlikləri, ayrı-ayrı detallar dəyişdirilir, bununla da, obrazın cizgilərinə və şərhinə müxtəlif səpkilərdən yanaşılır, tamaşaçının nəzərində böyük mütəfəkkir və filosofun dərin humanistliyi görünür. Portret kompozisiya bütövlüyü ilə nəzərə çarpır, obrazın ifadəliyinə sifət ritminin incəliklə yapılması sayəsində nail olunur. Tokay Məmmədov plastik məğzi pozmayaraq və formayaratmanın qanunlarına sadiq qalaraq, dəzgah heykəltəraşlığından monumental formalara və əksinə keçir. Portreti yaradılan şəxsiyyətin real adam və yaxud tarixi qəhrəman olmasına baxmayaraq, Fuad obrazın portret oxşarlığına diqqətlə yanaşır. O, portretin təqdimində psixoloji müəyyənliyə və obrazın dərin səciyyəviliyinə müvəffəq olur. Obrazları monumentallaşdırmaq, insanın qüdrətini, əzəmətini, mənəvi gözəlliyini göstərən, konkret bir obrazın simasında ictimai və milli xüsusiyyətləri əks etdirmək meyli həkim "Əbülfəz Qarayevin" monumental büstlərində özünü büruzə verir .

Tokay Məmmədov obrazların təcəssümündə xırda detallara uymadan ümumiləşdirilmiş plastik obraz yaradır. Mərmər büst-abidələrin plastik quruluşu,

frontallığı, fəzada müəyyən bir istiqamətə yönəldilməsi, həcmlərin qapalılığı bu abidələrə daha aydın monumental görkəm verir. Burada monumentallıq zahiri görünüşlə əlaqədar olmaqdan daha çox obrazların məzmun zənginliyi və bitkinliyi ilə əlaqədardır.

Çəhrayı mərmərdən yonulmuş yarım boy bu heykəltəraşlıq əsrində sözün əsil mənasında bir təbib surəti canlanmışdır. Heykəltəraş obrazın açılması üçün yardımçı detallardan doğru və dürüst istifadə etmişdir. Əynindəki geyimi və boynundan sallanan fonendoskop onun həkim olmağına bir işarədir. "Əbülfəz Qarayev" heykəli kompozisiyası, forma dürüstlüyü və kamilliyi, plastikliyi və canlılığı ilə seçilir. Onun gözləri diqqətlə, ehtiyatla uzaqlara baxır. Həkimin simasında, baxışının dərinliyində xəstə insanlara ikinci həyat verməsi öz əksini tapmışdır. Yaradıcılıq niyyətlərinin həyatda tətbiqinin gedişi göstərir ki, heykəltəraş gündəlik müşahidələrində topladığı biliyi ümumiləşdirməyə, yaşadığı mühitin ictimai idealını özünəməxsus tərzdə təcəssüm etdirməyə çalışır.

Görkəmli heykəltəraş həkim Əbülfəz Qarayevin heykəlində baş hissəsini geniş, ümumiləşdirilmiş bir səpkidə yaradıb, boynunun, sinəsinin, çiyinlərinin möhkəmliyi ilə həkimin daxili zənginlik və mənəvi mətinlik kimi səciyyəvi cəhətlərini nəzərə çarpdırır. Heykəltəraş həkimin abidəsinin yaradılmasında əsas diqqəti modelin əhali-ruhiyyəsini və daxili aləmini göstərməyə yönəltmişdir. Bədii obraz öz mahiyyətinə görə humanistdir, o, böyük plastik icrasına, dərin daxili dinamikasına görə nəzəri cəlb edir. Obrazın yığcamlığı təsvirin konkret həyatiliyinə xələl gətirmirdi. Heykəltəraşı hadisə deyil, insan abidəsi maraqlandırır və məhz heykəlin yapılmasında tarixi obrazların yaradılması sahəsində toplanan təcrübədən maksimal dərəcədə istifadə edirdi. Forma, dinamiklik, dekorativ ifadəlilik hissinin səyini qeyd etmək heykəltəraşa yığcam, mürəkkəb fəlsəfi əhəmiyyətli və dərin psixoloji təsirə malik alim obrazını yaratmaq imkanı vermişdir. Bu, bütün istedadını sərf etmiş böyük sənətkarların yüksək mütəxəssis ustalığının bəhrəsi, humanist, ənənəvi estetik ideallların təzahürünü verən, heykəltəraşlıq sahəsində yeni addımın təsdiqini nümayiş etdirən bir əsərdir.

Hansı mövzuda işləməsindən asılı olmayaraq Tokay Məmmədov sənətdə öz fərqli dəsti-xəttini, fərqli düşüncə tərzini qoruyub saxlamağa nail olmuş, intellektual baxımdan layiqli müzakirə mövzusu ola biləcək konsepsiyalar irəli sürmüş və bunu ilk dəfə yapanlardan olmuşdur.